**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA BÜDCƏNİN FORMALAŞMASINDA VERGİ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: 53 - iqtisad elmləri

İddiaçı: **Həsən Sarif oğlu Həsənov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın
**A V T O R E F E R A T I**

**Bakı - 2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru, professor<br>**Zahid Fərrux oğlu Məmmədov** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, professor<br>**Səfər Həsən oğlu Pürhani** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Əli Ağa Atxam oğlu İsmayılzadə** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Vüqar Avtandil oğlu Bayramov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

| | |
|---|---|
| **ED 2.10 Dissertasiya şurasının sədri:** | iqtisad elmləri doktoru, professor<br>**Yaşar Atakişi oğlu Kəlbiyev** |
| **ED 2.10 Dissertasiya şurasının elmi katibi:** | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Suqra İnqilab qızı Hümbətova** |
| **Elmi seminarın sədri:** | iqtisad elmləri doktoru, professor<br>**Rəsul Ənvər oğlu Balayev** |

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hər bir ölkənin iqtisadi artımının əsası kimi maliyyə bazasının formalaşmasının açarı onun güclü maliyyə bazasının olmasıdır ki, bu da xeyli dərəcədə vergi potensialının davamlı olaraq artırılmasından asılıdır. Vergi potensialı milli iqtisadiyyatın bütün sahələri tərəfindən yaradılır və bilavasitə vergitutma bazası ilə bağlıdır. Bu kontekstdə vergitutma bazasının genişləndirilməsi ölkədə iqtisadi artımın təmin edilməsi, istehsalın həcminin və rəqabətqabiliyyətliliyinin artırılmasının real ilkin şərtinə çevriləcəkdir. Odur ki, vergi-büdcə sistemi resurslarına tələbatın müəyyən edilməsi və proqnozlaşdırılması, iqtisadiyyatın vergi potensialının kompleks qiymətləndirilməsi və onun artırılması istiqamətlərinin işlənib hazırlanması dövlətin formalaşması və səmərəli inkişafının əsas prioritetlərindəndir. Məhz bu aspektdən yanaşdıqda görmək olar ki, vergi potensialının qiymətləndirilməsi hökumətin qeyri-neft sektorları, birbaşa xarici investisiyalar, kiçik və orta sahibkarlıq kimi alternativ mənbələrdən gəlir əldə etmək imkanlarını ölçməyin mühüm aləti olaraq meydana çıxır. Bu fikir qeyri-sabit enerji bazarlarına həddən artıq asılılıqla bağlı riskləri azaldaraq daha möhkəm və sabit büdcə məhdudiyyəti yaratmağa imkan verir.

Ölkə iqtisadiyyatının dövlət və özəl sektorları arasındakı disproporsiyalar bu sektorların inkişafina mənfi təsir göstərməklə onların qarşılıqlı fəaliyyətinin gücləndirilməsinə maneələr yaradır. Bu, həmin sektorların fəaliyyətinin tənzimlənməsi zərurətini müəyyən edir, belə tənzimləmə rıçaqları arasında isə vergi siyasəti xüsusi yer tutur. Onun etibarlılığı vergitutma bazasının genişlənməsinə və bu əsasda dövlətin inkişafının maliyyə bazasını təşkil edən vergi potensialının artmasına birbaşa təsir göstərir. Odur ki, vergi potensialının formalaşdırılması və həyata keçirilməsinin səmərəliliyinin artırılmasına yönəlmiş nəzəri əsaslandırma və metodoloji yanaşma, vergi potensialının formalaşmasına təsir edən amillərin kompleks empirik təhlili, deskriptiv və reqressiya analizi və vergi potensialının artırılması istiqamətləri ilə bağlı təklif və tövsiyələrin işlənib hazırlanması zərurəti müəllif tərəfindən sözügedən tədqiqatın mövzusunun seçilməsini müəyyən etmişdir.

Vergitutma ölkələrin büdcələrinin formalaşmasında əhəmiyyətli alət olduğu üçün bir çox alim və tədqiqatçılar bu sahədə, araşdırmalar, tədqiqatlar aparmış, o cümlədən, vergi elminə töhfələr vermişdirlər. Vergitutmanın ölkələr üçün əhəmiyyətini, dövlətlərinin vergitutmadan tənzimləyici alət kimi istifadə etməsini, onun gəlir bərabərsizliyini aradan qaldırmasını, o cümlədən, vergilərin ölkənin iqtisadi sisteminin formalaşmağında vacib rol oynadığını A.Smit, D.Rikardo, M.Fridman, A.Laffer, A.J.Auerbach, Xodov.L.Q, C.Robson, T.Blumkin, L.Kotlikoff, S.Reuven kimi alim və tədqiqatçılar öz əsərlərində və elmi tədqiqatlarında göstərmişdirlər. Bu əsər və tədqiqatlarda vergitutma ilk növbədə dövlət büdcəsinin formalaşdırılmasını təmin edən vasitə və gəlirlərin bərabər bölüşdürülməsini təmin edən alət kimi göstərilmiş və vergitutmanın ölkə iqtisadiyyatı üçün əhəmiyyətli rol oynadığı vurğulanmışdır.

Dünya miqyasında fəaliyyət göstərən alim və tədqiqatçılar kimi, vergitutma və onun ölkə iqtisadiyyatı üçün əhəmiyyəti ölkəmizin iqtisaadçı alim və tədqiqatçıları tərəfindən də dərindən öyrənilmişdir. Bu sahədə, Y.A.Kəlbiyev, Z.F.Məmmədov, Ə.C.Məmmədov, A.F.Musayev, P.Q.Rzayev, Y.H.Həsənli kimi alim və tədqiqatçıların çoxsaylı əsərləri, elmi-praktiki nəşrləri və monoqrafiyaları mövcuddur. Bu əsərlər vergitutma elminə dəyər qatmış, o cümlədən, bu əsərlərdə vergitutmanın dünya ölkələri, habelə ölkəmiz üçün vacibiyyəti, onun inkişafı yolları və təkmilləşdirilməsi istiqamətləri göstərilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan iqtisadiyyatının vergi potensialı təşkil edir. Tədqiqatın predmeti vergi potensialı ilə büdcə arasında qarşılıqlı əlaqənin müəyyən edilməsi və büdcənin formalaşmasında vergi potensialının qiymətləndirilməsi ilə bağlı sosial-iqtisadi münasibətlərdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan iqtisadiyyatının vergi potensialını və onun büdcənin formalaşdırılmasında və icrasında əsas rolunu araşdırmaq, təhlil etmək və qiymətləndirməkdir. Bu məqsədə nail olmaq üçün aşağıda göstərilən vəzifələr müəyyən olunmuş və yerinə yetilmişdir:

-vergitutma sahəsində xarici dövlətlərin uğurla tətbiq etdiyi beynəlxalq təcrübələri təhlil edərək sistemləşdirmək və onların

Azərbaycanda tətbiqinin mümkün varianlarını araşdırmaq;

-dövlət büdcəsinin formalaşma mənbələrini və bu mənbələrin dövlət büdcəsindəki paylarını müəyyənləşdirərək, büdcə xərclərinin istiqamətlərini proqnozlaşdırmağa nail olmaq;

-vergi sisteminin kompleks təhlilini həyata keçirərək, mövcud çatışmazlıqları aşkara çıxarmaq və onların aradan qaldırılması yolları ilə bağlı müvafiq təkliflər hazırlamaq;

-vergi potensialına təsir göstərən iqtisadi dəyişənləri təhlil edərək qiymətləndirmək;

-vergi inzibatçılığını və vergi qanunvericiliyini əhatəli təhlil edərək mövcud çatışmazlıqları üzə çıxarmaq və onların aradan qaldırılması istiqamətlərini əsaslandırmaq;

-vergitutma bazasının genişləndirilməsi, o cümlədən vergi yığımı mexanizmlərininin təkmilləşdirilməsi istiqamətində mövcud çatışmazlıqları aşkara çıxararaq qiymətləndirmək və onların aradan qaldırılması yolları ilə bağlı zəruri tövsiyələr vermək;

-investisiyaların təşviq edilməsi sahəsində mövcud vergi sistemini təhlil edərək effektiv vergi güzəştlərinin müəyyənləşdirilməsi metodologiyasının təkmilləşdirilməsinə dair təkliflər vermək.

**Tədqiqatın metodları.** Tədqiqatda müqayisə, iqtisadi-riyazi modelləşdirmə, iqtisadi-statistik təhlil, sintez, ümumiləşdirmə kimi üsulları, həmçinin, deduktiv və qrafik metodları əhatə edən sistemli metodologiyadan istifadə edilmişdir. O cümlədən, verilənlər arasında əlaqənin müəyyən edilməsi üçün çoxxətli reqressiya analizi həyata keçirilmişdir. Tədqiqat aparılan zaman kəmiyyət və keyfiyyət məlumatlarının toplanması və təhlili üsullarının birləşməsindən istifadə edilmişdir və bu yanaşma multi-metod metodoloji əsası adlanır.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Vergi potensialının qiymətləndirilməsi və vergilərin inkişaf istiqamətlərinin müəyyən edilməsi ölkədə vergitutma sahəsində inkişafa və ümumi iqtisadi tərəqqiyə nail olmağa şərait yaradır.

2. Vergitutma sahəsində uğurlu beynəlxalq təcrübənin tətbiqi vergi sahəsində mütərəqqi sistemin yaradılmasına, vergidən yayınma hallarının aradan qaldırılmasına, vergi sisteminin təkmilləşdirilməsinə müsbət təsir göstərir.

3. Dövlət büdcəsinin formalaşmasında vergitutmanın

əhəmiyyətinin əsaslandırılması büdcəyə vergi daxilolmalarının artmasına səbəb olur.

4. Makro və mikro iqtisadi amillərin ölkənin vergi potensialına təsirinin qiymətləndirilməsinin əsaslandırılması ölkədə iqtisadi inkişafı təmin etməyə, o cümlədən vergi sahəsindəki çatızmazlıqların müəyyən edilərək aradan qaldırılmasına təkan verir.

5. Vergitutma bazasının və vergi yığımı mexanizmlərinin təhlili ölkədə vergi sisteminin təkmilləşdirilməsində əsaslı rola malikdir.

6. Vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsi yollarının öyrənilməsi bu sahələrin inkişaf perspektivlərini müəyyən etməyə və effektiv vergi sisteminin formalaşdırılmasına imkan yaradır.

7. Xarici və yerli investisiyaların təşviq edilməsində vergitutmanın əhəmiyyətinin qiymətləndirilməsi ölkəyə investisiya cəlbediciliyinin stimullaşdırılmasına və uzunmüddətli dövrdə xarici investorlardan gələn vergidaxilolmalarının artmasına rəvac verir.

**Tədqiqatın elmi yeniliyi:** Aşağıda göstərilən müddəalar tədqiqatın elmi yenilikləri hesab olunur:

- ölkəmizin vergi qanunvericiliyi təhlil edilərək, mövcud çatışmazlıqlar müəyyən edilmiş və onların aradan qaldırılması istiqamətləri təklif edilmişdir;

- ÜDM, inflasiya, ticarət balansı, dövlət borcu, gündəlik neft istehsalının həcmi kimi makroiqtisadi göstəricilərin vergi potensialına təsirini qiymətləndirən çoxxətli reqressiya analizi həyata keçirilmiş və onların vergi potensialına təsiri əsaslandırılmışdır;

- vergitutma inzibatçılığında mövcud çatışmazlıqlar müəyyən edilərək onların aradan qaldırılması və vergitutma inzibatçılığının təkmilləşdirilməsi istiqamətləri üzrə nəzəri-praktiki tövsiyyələr hazırlanmışdır;

-investisiyaların cəlb edilməsi üçün vergi stimullarının tətbiqi məqsədilə əhəmiyyətli modellər müəyyən edilərək, onların ölkədə tətbiqi imkanları qiymətləndirilmişdir;

-vergitutma bazasının təkmilləşdirilməsi ilə bağlı təhlillər aparılmış, onun inkişaf istiqamətləri üzə çıxarılmış, o cümlədən, şəkərlə dadlandırılmış içkilər üçün aksiz vergisinin tətbiqinin əhəmiyyəti əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat özündə elmi-nəzəri baxışları, iqtisadi nəzəriyyələri, sintezləri, təhlilləri birləşdirir. Buna görə də, tədqiqatdan bakalavr, magistr, fəlsəfə doktoru dissertasiyalarının yaazılmasında, elmi əsərlərin ərsəyə gətirilməsində, o cümlədən, elmi araşdırma və tədqiqatların həyata keçirilməsində istifadə edilə bilər. Tədqiqatın nəzəri əhəmiyyəti ilə yanaşı, onun praktiki əhəmiyyəti də mövcuddur. Belə ki, tədqiqat özündə, çoxillik statistik məlumatlar əsasında hazırlanan çoxxətli reqressiya analizini, riyazi-statistik modelləri, statistik informasiyaları, o cümlədən vergi potensialının artıtılması ilə bağlı xarici təcrübədə geniş istifadə edilən praktiki modelləri ehtiva edir. Praktiki olaraq tədqiqatdan ölkənin vergi qanunvericiliyinin təkmilləşdirilməsində, vergi siyasətinin inkişafında, vergi sahəsində dövlət proqramlarının hazırlanmasında istifadə edilə bilər.

**Aprobasiya və tətbiq.** Dissertasiya işində təhlil edilmiş müddəalar və əldə edilmiş nəticələr ölkəmizdə və ölkə xaricində keçirilmiş beynəlxalq elmi konfranslarda məruzə olunmuşdur. Doktorantların və gənc tədqiqatçıların XXV Respublika Elmi Konfransının (NASCO XXV), "Yeni Dövrdə Təhsil Və Tədqiqat Fəaliyyəti: Reallıqlar Və Çağırışlar", Türkiyənin Malatya şəhərində keçirilən İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun (İKSAD, Türkiyə) "Biltek-VI. Elmin Cari İnkişafı, Texnologiya və Humanitar Elmlər" mövzusunda keçirdiyi beynəlxalq müasir elmi tədqiqatlar konfransı və digər konfranslarda müzakirə edilmişdir. Tədqiqat işi ilə bağlı 4 elmi məqalə ölkə daxilində (onların hamısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxildir), 1 elmi məqalə isə xaricdə dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı** – Dissertasiya Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi** – Dissertasiya işinin struktur tərkibi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (13060 işarə), I fəsil (90218 işarə), II fəsil (83443 işarə), III fəsil (63135 işarə), nəticə (17639 işarə), istifadə edilmiş ədəbiyyat siyahısı (17856 işarə) üzrə ümumi həcm 307845

işarədən ibarətdir. Dissertasiyanın işarə sayı cədvəllər, qrafiklər, sxemlər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 267495 işarədən ibarətdir.

## Dissertasiya işinin quruluşu

**GİRİŞ**
**I FƏSİL. Büdcənin formalaşmasında vergi potensialının nəzəri-metodoloji əsasları**
1.1. Dövlət büdcəsinin formalaşmasında vergitutmanın rolu, funksiyaları və tətbiqi prinsipləri
1.2. Vergi potensialının formalaşması və qiymətləndirilməsinə konseptual və nəzəri-metodoloji yanaşma
1.3. Beynəlxalq təcrübədə vergi siyasətinin tətbiqi mexanizmlərinin təhlili
**II FƏSİL. Azərbaycanın büdcə-vergi sisteminin və vergi potensialının formalaşmasına təsir göstərən amillərin təhlili və qiymətləndirilməsi**
2.1. Ölkədə dövlət büdcəsinin formalaşması mənbələrinin tədqiqi
2.2. Azərbaycanda vergi sisteminin mövcud vəziyyətinin kompleks təhlili və qiymətləndirilməsi
2.3. Azərbaycanın vergi potensialının formalaşmasına təsir göstərən amillərin deskriptiv və reqressiya analizi
**III FƏSİL. Azərbaycan Respublikası büdcəsinin formalaşmasında vergi potensialının artırılması istiqamətləri**
3.1. Vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi vergi potensialının artırılması istiqaməti kimi
3.2. Ölkənin vergi potensialının artırılması kontekstində vergitutma bazasının və vergi yığımı mexanizmlərinin təkmilləşdirilməsi
3.3. İnvestisiyaların təşviqində vergi stimullarından istifadənin yaxşılaşdırılmasının vergi potensialının artırılmasına təsiri
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat siyahısı**
**İxtisarlar**
**Əlavələr**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS MÜDDƏALAR

**Müddəa 1. Vergi potensialının qiymətləndirilməsi və vergilərin inkişaf istiqamətlərinin müəyyən edilməsi ölkədə vergitutma sahəsində inkişafa və ümumi iqtisadi tərəqqiyə nail olmağa şərait yaradır.** Vergitutma müasir cəmiyyətin fəaliyyətinin əsasını təşkil edən fundamental anlayışdır. Özündə vergitutma hökumətlərin ictimai mal və xidmətləri maliyyələşdirmək üçün fiziki şəxslərdən və müəssisələrdən gəlir toplaması prosesini nəzərdə tutur. O, istənilən müasir cəmiyyətin vacib hissəsidir və iqtisadi inkişafda, sosial rifahda və ictimai inkişafda həlledici rol oynayır. Vergitutmanın mahiyyəti vətəndaşların dövlətin idarə edilməsi və ictimai mal və xidmətlərin təmin edilməsi xərclərinə öz ədalətli payını ödəməsi ilə bağlı töhfə prinsipidir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının qanunvericiliyində vergilər, dövlətin və bələdiyyələrin fəaliyyətinin təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi və əvəzsiz ödənişdir kimi qeyd edilmişdir.

Vergi potensialı müəyyən edilərkən, hər hansı bir ərazidə, regionda yaxud ölkədə vergitutma ehtiyatlarının maksimal mümkün sayı, yəni həmin ərazi üzrə ümumi vergi qabiliyyəti müəyyən edilir. Qeyd etmək lazımdır ki, mövcud ədəbiyyatlar təhlil edilərkən vergi potensialının qiymətləndirilməsinin bir sıra metodları müəyyən edilmişdir. Bu metodlara reprezentativ vergi sistemi metodunu, potensial vergi öhdəliklərinin dolayı qiymətləndirilməsi metodu, additiv metodu, əhalinin adambaşına düşən gəlirlərinə əsaslanan metodu, birbaşa hesablama metodunu, reqressiv təhlil metodunu və.s misal göstərmək olar. Yuxarıda göstərilən qiymətləndirmə metodlarından geniş istifadə edilən metodlar reprezentativ vergi sistemi metodu və additiv metoddur.

Reprezentativ vergi sistemi metodu, vergi bazalarına uyğun olaraq ölkədə orta vergi dərəcələri ilə regional büdcəyə potensial vergi daxilolmalarının proqnozlaşdırılmasına əsaslanan bir üsuldur. Bu metodun əsas mahiyyəti regionlarda vergi səylərinin orta səviyyədə və vergi dərəcələrinin eyni olduğu təqdirdə, onlardan büdcəyə potensial vergi daxilolmalarının hesablanmasından ibarətdir. Reprezentativ vergi sistemi metodu vasitəsilə vergi potensialının hesablanması

aşağıdakı düstur vasitəsilə həyata keçirilir:

$$VPR_i = \sum_{k-1}^{k} VB_k \ x \ RV_i \ /100\%$$

$VPR_i$ - *ölkənin i-ci regionunun vergi potensialı;*

$VB_k$ - *ölkənin i-ci regionunun k-cı vergi gəlirinin vergi bazası;*

$RV_i$ - *ölkənin i-ci regionunun k-cı vergi gəliri üçün reprezentativ (orta) vergi dərəcəsidir.*

Qeyd etmək lazımdır ki, bu metodun tətbiq edilməsi üçün lazım olan informasiya həm kifayət qədər, həm də dəqiq olmalıdır. Yəni lazımi informasiyanın əldə edilməsi bəzi hallarda müəyyən qədər çətinlik yarada bilir. Lakin, nəzərə almaq lazımdır ki, lazımi informasiyanın mövcud olduğu təqdirdə bu metoddan istifadə kifayət qədər dolğun və etibarlı nəticələr verir.

Yuxarıda göstərilən metodla yanaşı, additiv metod da vergi potensialının qiymətləndirilməsi baxımından diqqətəlayiq metod hesab olunur. Additiv metod, vergi potensialının əlavə xassəsinə əsaslanan və ayrı-ayrı vergilərin potensiallarının cəminə bərabər olan üsuldur və aşağıdakı düsturla ifadə edilir:

$$VP = \sum(VB_i \times VD_i) \times S_1 \times S_2 \times \dots . \times \dots S_i$$

*VP vergi potensialı;*

$VB_i$ *– i-ci vergi üzrə vergi bazası;*

$VD_i$ *– i-ci vergi üzrə vergi dərəcəsi;*

$S_1 \times S_2 \times \dots . \times \dots S_i$ *– müəyyən edilmiş şərtləri müəyyən edən əmsallardır.*

Əlavə olaraq qeyd olunmalıdır ki, bu üsul vergi potensialının bu və ya digər səbəbdən reallaşdırılan və ərazinin alınmayan vergi gəlirlərinin mütləq dəyəri olması fikrinə əsaslanır. Bu üsul vergi öhdəlikləri, faktiki vergi daxilolmaları, ödənişlər üzrə borclar və vergi inzibatçılığında ərazi orqanlarının fəaliyyəti haqqında məlumatlardan istifadə edir.

**Müddəa 2. Vergitutma sahəsində uğurlu beynəlxalq təcrübənin tətbiqi vergi sahəsində mütərəqqi sistemin yaradılmasına, vergidən yayınma hallarının aradan qaldırılmasına, vergi sisteminin təkmilləşdirilməsinə müsbət təsir göstərir.**

Danılmaz bir faktdır ki, vergilər hər bir dövlətin iqtisadi sisteminin ayrılmaz tərkib hissəsidir. Dünyanın müxtəlif ölkələrində

dövlətlər müxtəlif vergilər tətbiq etməklə öz iqtisadiyyatlarını inkişaf etdirməyə çalışırlar. Qloballaşan dünyada dövlət üçün vergilərin müəyyən və tətbiq edilməsi zamanı beynəlxalq təcrübə mütləq nəzərə alınmalı olan vacib bir faktordur. Çünki dövlətlər bir-biri ilə daim iqtisadi əməkdaşlıq içərisindədirlər. Həmçinin, nəzərə almaq lazımdır ki, qlobal dünyada baş verən hər hansı qlobal dəyişiklik bütün ölkələrin iqtisadiyyatına bu və ya digər dərəcədə təsir göstərə bilir. Əlavə olaraq vurğulamaq lazımdır ki, inkişaf etmiş və bəzi inkişaf etməkdə olan ölkələrin vergitutma sahəsində müsbət təcrübəsinin ölkəmizin iqtisadi və sosial mühitinə uyğunlaşdırılaraq tətbiqi ölkə üçün əhəmiyyətli dərəcədə effektiv nəticələr verə bilər.

Qeyd etmək lazımdır ki, bir çox dünya dövlətləri vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində bir çox layihələr həyata keçirmişdirlər. Həyata keçirilən layihələr vergi inzibatçılığı sahəsində səmərəliliyin əldə olunmasına, vergi yığımlarının artıtılmasına, o cümlədən, vergi inzibatçılığının həyata keçirilməsi ilə bağlı xərclərin optimallaşdırılmasına gətirib çıxarmışdır. Aşağıdakı cədvəldə vergi inzibatçılığı sahəsində tədbirlər həyata keçirən ölkələr göstərilmişdir:

**Cədvəl 1. Müxtəlif ölkələrdə vergi inzibatçılığı sahəsində həyata keçirilən tədbirlər**

| Ölkə | Həyata keçirdiyi tədbir |
|---|---|
| **Kanada** | **Aqressiv Beynəlxalq Vergi Planlaması** |
| **Misir** | **Nümunəvi Gömrük və Vergi Mərkəzi** |
| **El-Salvador** | **Avtomatlaşdırılmış Robo-Zəng Sistemi** |
| **İsveç** | **Vergi Ödəyicilərinin Rəyi** |
| **Amerika Birləşmiş Ştatları** | **Özünəxidmət İmkanları** |
| **Çili** | **Vergi ödəyicisi xidmətləri** |
| **Amerika Birləşmiş Ştatları** | **Könüllü açıqlama proqramı** |
| **İtaliya** | **Məqsədli məlumatların uyğunlaşdırılması və digər uyğunluq fəaliyyətləri** |
| **Gürcüstan** | **Vergi administrasiyasının bütövlüyü** |

***Mənbə:*** *USAID's Leadership in Public Financial Management. Detailed Guidelines for Improved Tax Administration in Latin America and the Caribbean. - USAID, - 2013 məruzəsindən əldə edilən məlumatların əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Vergi sistemi sahəsində beynəlxalq təcrübənin təhlili onu göstərir ki, müxtəlif ölkələrdə vergilərə və vergi inzibatçılığına yanaş-

malar fərqlidir. Belə ki, araşdırma onu göstərir ki, vergilərin əhəmiyyətinin vətəndaşlar tərəfindən başa düşüldüyü ölkələrdə bu sahədə islahatlar aparmaq daha asan olur. Ölkələrdə vergi sahəsində dəyişikliklərə nəzər saldıqda görünür ki, bu dəyişikliklər həyata keçirilərkən beynəlxalq təcrübə, həmçinin, ölkənin mövcud iqtisadi və sosial vəziyyəti diqqətə alınır. O cümlədən, ölkəmizdə də vergi sahəsində dəyişikliklər həyata keçirilərkən vergi sistemi kompleks şəkildə təhlil edilməli, çatışmazlıqlar aşkara çıxarılmalı və bu çatışmazlıqların aradan qaldırılması üçün beynəlxalq təcrübə təhlil olunaraq ölkənin mövcud sosial-iqtisadi vəziyyətinə uyğunlaşdırılaraq tətbiq edilməlidir.

**Müddəa 3. Dövlət büdcəsinin formalaşmasında vergitutmanın əhəmiyyətinin əsaslandırılması büdcəyə vergi daxilolmalarının artmasına səbəb olur.** Vergilərin mahiyyətindən bəhs edərkən nəzərə alınmalıdır ki, vergilər büdcə sisteminin ayrılmaz tərkib hissəsidir və vergilərin ümumi xarakterini büdcə sistemi şərtləndirir. Hər bir dövlətin büdcə gəlirlərinin formalaşmağında bir sıra mənbələr mövcuddur. Bunlar dövlət əmlakı və ehtiyatlarından gələn gəlirlər, vergitutmadan gələn daxilolmalar və istiqrazların, qiymətli kağızların satışından gələn daxilolmalar kimi səciyyələndirilir. Büdcənin əsas gəlirlərinin vergilərdən formalaşdırılması iqtisadi və sosial inkişafın davamlılığını təmin edən bir vasitədir. Belə ki, bəzi inkişafda olan ölkələr təbii sərvətlərin (neft, qaz, qızıl, almaz və.s) çıxarılması və ixracı hesabına büdcəyə əsas daxilolmaları təmin edirlər. Bu isə öz növbəsində büdcədə asılılıq yaradır və iqtisadiyyatın inkişafı və diversifikasiyası üçün əngəl törədir. Sadalanan hallar, adətən, inkişaf etməkdə olan ölkələr üçün xarakterik hal hesab olunur. Büdcə, maliyyə sisteminin mühüm tərkib hissəsidir. O, maliyyə siyasəti ilə iqtisadi sabitlik arasında həyati əlaqə rolunu oynayır, resursların səmərəli bölüşdürülməsini təmin edir və davamlı maliyyə idarəçiliyini təşviq edir. Büdcə iqtisadi sabitliyin formalaşmasında mühüm rol oynayan fiskal siyasətin həyata keçirilməsi mexanizmi rolunu oynayır. Qeyd etmək lazımdır ki, dövlət büdcədən gəlirlərin yaradılması strategiyalarını, xərc prioritetlərini və fiskal hədəfləri müəyyən etmək üçün istifadə edir. Büdcə siyasəti iqtisadi məqsədlər ilə, yəni, artımın təşviqi, inflyasiyanın azaldılması və ya balanslaşdırılmış büdcəyə nail olmaqla uyğunlaşdırılaraq, maliyyə sistemində iqtisadi sabitliyin qorunması üçün vacib alətə çevrilir.

Qeyd etmək lazımdır ki, ölkəmiz regionda böyük neft və qaz ixracatçısı olmağına baxmayaraq son illərdə büdcə daxilolmalarının əksər hissəsinin vergilərdən daxil olmasına nail olmuşdur. Son illərin büdcə daxilolmalarına nəzər salındıqda büdcə daxilolmalarının 60%-dən çoxunun vergilərin hesabına formalaşması müşahidə olunur. Vergi daxilolmalarının büdcənin formalaşmasında əhəmiyyətli yer tutması iqtisadi və sosial inkişafın bariz göstəricisidir. Çünki vergilərin büdcəyə təsirinin olduğu kimi, büdcənin də vergilərin formalaşmasına əhəmiyyətli dərəcədə təsir var. Belə ki, büdcə daxilolmalarının artması, dövlətin iqtisadi və sosial sahəyə daha çox investisiya qoyuluşunu reallaşdırmağına şərait yaradır. Bu da öz növbəsində, yeni iş yerlərinin yaranmasına, sosial layihələrin həyata keçirilməsinə, məşğulluq səviyyəsinin artmasına və nəticədə vergi obyektlərinin sayının artmasına səbəb olur. Aşağıdakı qrafikdə 2010-cu ildən bəri, illər üzrə dövlət büdcəsinin gəlirləri öz əksini tapmışdır:




**Qrafik 1. Dövlət büdcəsinin gəlirləri (mln manatla)**

***Mənbə:***<u>*https://azstat.org/statHtml/statHtml.do?orgId=994&tblId=DT_BK_002&conn_path=I2*</u> *portalından əldə edilən məlumatların əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Qrafikdən göründüyü kimi, dövlət büdcəsinin gəlirlərində illər üzrə artım müşahidə olunmuşdur. Qrafikdən aydın şəkildə müşahidə edilir ki, 2010-cu ildə 11403 milyon manat olan dövlət büdcəsinin gəlirləri 2023-ci ildə 35577,8 milyon manat olmuşdur. Yəni 2010 - cu ilə nisbətdə 2023-cü ildə dövlət büdcəsinin gəlirləri 3.12 dəfə, yəni 212% artmışdır. Qeyd olunmalıdır ki, büdcədə hər növbəti il artım müşahidə olunmuşdur. O cümlədən, son ildə, yəni 2023-ci ildə dövlət büdcəsinin gəlirlərindəki artım xüsusilə nəzər çarpır. Lakin, 2015-2017-ci illlərdə bu artım tempinin pozulduğunu qrafikdə aydın şəkildə müşahidə edilir. Belə ki, 2015-2017-ci ilin dövlət büdcəsinin gəlirlərinə nəzər yetirdikdə, əvvəlki illərə nisbətən, bu illərdə vergilərdən daxilolmalarda azalma müşahidə olunur. Bunu növbəti qrafikdə daha aydın müşahidə etmək olar:




**Qrafik 2. Dövlət büdcəsinin formalaşma mənbələri.**

***Mənbə:*** *https://www.azstat.gov.az/portal/tblInfo/TblInfoList.do# portalından əldə edilən məlumatların əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Yuxarıdakı qrafikə nəzər saldıqda, dövlət büdcəsinin formalaşmasında vergilərin xüsusi çəkisinin olduğunu müşahidə etmək mümkündür. Qeyd olunmalıdır ki, xüsusilə, əlavə dəyər vergisi və hüquqi şəxslərin mənfəət vergisi, büdcənin formalaşmağında mühüm əhəmiyyət kəsb edir. Qrafikdən müşahidə olunur ki, illər üzrə digər vergilərdən daxilolmalar da artan templə davam etmişdir. Belə ki, 2010-cu ildə vergilərdən daxilolmalar cəmi 5266.8 milyon manat, yəni büdcə daxilolmalarının cəmi 46,18%-ni əhatə etmişdir. Lakin bu rəqəm 2023-cü ildə 22063,16 milyon manat, yəni büdcə daxilolmalarının 62,01% təşkil etmişdir. Vergilərlə yanaşı, qrafikdə sair daxilolmaların da əhəmiyyətli rolu olduğu müşahidə edilir. Bu daxilolmalarda xüsusi yeri Dövlət Neft Fondundan transfertlər, gömrük rüsumları, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar tutur.

Ümumiyyətlə, ölkədə vergi sahəsində hər il innovativ və konstruktiv işlər görülür. Son illərdə, vergi qanunvericiliyi sahəsində dəyişikliklər aparılması, vergi xidmətlərinin həyata keçirilməsi üçün elektron portalın yaradılması, vergi ödəyicilərinin qeydiyyatı üçün bir pəncərə sisteminin yaradılması, o cümlədən, vergi nəzarəti sahəsində konstruktiv addımların atılması ölkədə vergi sisteminin daha da təkmilləşdirilməsinə və vergi daxilolmalarının kifayət dərəcədə artmasına səbəb olmuşdur. Həmçinin müəyyən sahələrdə vergi güzəştlərinin tətbiq edilməsi, ölkə ərazisində yaşayan fiziki və hüquqi şəxslərin təsərrüfat fəaliyyətlərinin təşviqinə gətirib çıxarmışdır.

Görülən tədbirlərin nəticəsi olaraq, büdcə daxilolmalarına nəzər yetirdikdə, vergilərdən gələn gəlirlərin büdcədəki rolunun illər ərzində artımını müşahidə etmək mümkündür. Aşağıdakı qrafikdə 2005-ci ildən 2023-ci illər arasında dövlət büdcəsinə vergi daxilolmaları göstərilmişdir:




**Qrafik 3. Dövlət büdcəsinə vergi və sair daxilolmalar**

**Mənbə:** https://www.taxes.gov.az/az/page/daxilolmalar portalından əldə edilən məlumatların əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Qrafikdən aydın şəkildə müşahidə olunur ki, illər ərzində dövlət büdcəsinə vergi daxilolmaları kifayət qədər artmışdır. Belə ki, son 10 ildə vergi daxilolmalarının həcmi 6663,6 min manatdan 16126,68 min manata. yəni 2,42 dəfə artmışdır. Qrafikdə bəzi illərdə vergi daxilolmalarında azalma da müşahidə olunur ki, bu da həmin illərdə ümumi iqtisadi vəziyyətlə əlaqəlidir. Belə ki, ölkədə devalvasiyanın olması, daha sonra pandemiyanın nəticələri vergi daxilolmalarına da müəyyən qədər təsir etmişdir. Qrafikdə olduqca mühüm diqqət olunmalı məqam, vergi daxilolmalarında 2021 və 2022-ci illər arasındakı fərqdir. 2021-ci ildə pandemiyanın təsirlərinin yumşalmasına baxmayaraq, onun mənfi effektləri iqtisadi subyektlərə kifayət qədər təsir etdiyindən, vergi daxilolmalarında 2020-ci ilə nisbətən o qədər də böyük bir fərq yoxdur. Lakin 2022-ci ilə nəzər yetirdikdə, aparılan vergi islahatlarının və pandemiya dövründə aparılan fiskal siyasətin uğurlu nəticəsini müşahidə etmək mümkündür.

**Müddəa 4. Makro və mikro iqtisadi amillərin ölkənin vergi potensialına təsirinin qiymətləndirilməsinin əsaslandırılması ölkədə iqtisadi inkişafı təmin etməyə, o cümlədən vergi sahəsindəki çatızmazlıqların müəyyən edilərək aradan qaldırılmasına təkan verir.** Vergi potensialına bir sıra makro və mikro iqtisadi amillərin təsirini qiymətləndirməyə imkan verən çoxxətli reqressiya analizi həyata keçirilmişdir. Aşağıdakı cədvəldə analizin müstəqil və asılı dəyişənləri göstərilmişdir:

**Cədvəl 2. Analizin dəyişənləri**

| Müstəqil dəyişənlər | Asılı dəyişənlər |
|---|---|
| **İqtisadi artım** | |
| **Ümümi Daxili Məhsul (ÜDM)** | |
| **İnflyasiya** | Vergi gəliri |
| **Ticarət balansı** | ÜDM-də vergilərin həcmi |
| **Dövlət borcu** | Beynəlxalq ticarətə qoyulan |
| **Qanunun aliliyi** | vergi |
| **Korrupsiyaya nəzarət** | Digər vergilər |
| **Kölgə iqtisadiyyatı** | Vergidən dövlət büdcəsinə |
| **Gündəlik neft istehsalı** | daxilolmalar |
| **Kapital qoyuluşu (dollarla)** | |

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

Yuxarıda qeyd edilən dəyişənlər əsasında analiz çərçivəsində 5 xətti reqresiya analizi tədbiq edilmişdir. Sözügedən reqresiya analizlərinin modelləri aşağıdakı cədvəldə göstərilmişdir:

**Cədvəl 3.**
**Reqressiya modelləri**

| Reqressiya modelinin asılı dəyişəni əsasında formalaşan məqsədi | Reqressiya modeli |
|---|---|
| 1. Beynəlxalq ticarətə qoyulan vergiyə təsir edən müstəqil dəyişənlər əsasında formalaşan reqressiya modeli | $Y_a = \alpha + \beta_1 * X_1 + \beta_2 * X_2 + \beta_3 * X_3 + \beta_4 * X_4 + \beta_5 * X_5 + \beta_6 * X_6 + \beta_7 * X_7 + \beta_9 * X_9 + \beta_{10} * X_{10} + \mu$ |
| 2. Ölkənin vergi gəlirinə ÜDM nisbətində təsir edən müstəqil dəyişənlər əsasında formalaşan reqressiya modeli | $Y_b = \alpha + \beta_1 * X_1 + \beta_2 * X_2 + \beta_3 * X_3 + \beta_4 * X_4 + \beta_5 * X_5 + \beta_6 * X_6 + \beta_7 * X_7 + \beta_9 * X_9 + \beta_{10} * X_{10} + \mu$ |
| 3. Ölkənin beynəlxalq ticarətinə qoyulan vergiyə təsir edən müstəqil dəyişənlər əsasında formalaşan reqresiya modeli | $Y_c = \alpha + \beta_1 * X_1 + \beta_2 * X_2 + \beta_3 * X_3 + \beta_4 * X_4 + \beta_5 * X_5 + \beta_6 * X_6 + \beta_7 * X_7 + \beta_9 * X_9 + \beta_{10} * X_{10} + \mu$ |
| 4. Ölkənin digər vergilərinə təsir edən müstəqil dəyişənlər əsasında formalaşan reqressiya modeli | $Y_d = \alpha + \beta_1 * X_1 + \beta_2 * X_2 + \beta_3 * X_3 + \beta_4 * X_4 + \beta_5 * X_5 + \beta_6 * X_6 + \beta_7 * X_7 + \beta_9 * X_9 + \beta_{10} * X_{10} + \mu$ |
| 5. Ölkənin vergidən dövlət büdcəsinə daxil olan vergi gəlirlərinə təsir edən müstəqil dəyişənlər əsasında formalaşan reqressiya modeli | $Y_e = \alpha + \beta_1 * X_1 + \beta_2 * X_2 + \beta_3 * X_3 + \beta_4 * X_4 + \beta_5 * X_5 + \beta_6 * X_6 + \beta_7 * X_7 + \beta_9 * X_9 + \beta_{10} * X_{10} + \mu$ |

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

Yuxarıda qeyd edilən 5 reqressiya modelinin əsas məqsədi ölkənin vergi potensialına və dolayısı ilə verginin dövlət büdcəsinə olan təsirinin artırılmasında rol oynayan müstəqil dəyişənlərin müəyyən edilməsi olmuşdur. Bütün reqressiya modellərinin ölkənin vergi potensialını müəyyən etməkdə etibarlı vasitə olduqları əldə edilən nəticələr vasitəsilə dəstəklənmişdir. Modellər vasitəsilə əldə edilən nəticələrə əsasən qeyd etmək olar ki, iqtisadi inkişaf, ÜDM, ticarət balansı, dövlət borcu, qanunun aliliyi, kölgə iqtisadiyyatı, günlük neft hasilatı və ölkə iqtisadiyyatına qoyulan kapital qoyuluşu

(dollarla) ölkənin vergi potensialının müxtəlif göstəricilərinə statistik cəhətdən əhəmiyyətli dərəcədə təsir göstərirlər. Modellərə daxil edilən yalnız bir müstəqil dəyişən, korrupsiyaya nəzarətin analizin heç bir asılı dəyişəni ilə statistik cəhətdən əlaqəsinin olmadığı və nəticədə sözügedən dəyişəndəki hər hansı dəyişikliyin 1990 və 2021-ci illər ərzində ölkənin vergi potensialına təsir etmədiyi müəyyən edilmişdir. Ümumi olaraq qeyd edilməlidir ki, ölkənin büdcəsinin vergi gəlirləri vasitəsilə artırılması üçün modellər vasitəsilə müəyyən edilmiş müstəqil dəyişənlərin inkişaf etdirilməsinə ehtiyac vardır. Belə ki, iqtisadi inkişaf, ÜDM, qanunun aliliyi, günlük neft hasilatı, və ölkə iqtisadiyyatına qoyulan kapital qoyuluşunun (dollarla) daha da inkişaf etdirilməlidir ki, büdcəyə vergidən daxilolmaların həcmi gələcək illərdə daha da artırılsın. Digər tərəfdən, ölkənin vergi potensialına müsbət təsir edən müstəqil dəyişən kimi inflyasiya ilə bağlı hər hansı bir strategiya ölkənin vergi potensialına nominal səviyyədə təsir edəcəyindən, bu müstəqil dəyişənlə bağlı hər hansı xüsusi bir fəaliyyətə və ya strategiyaya ehtiyac yoxdur. Digər tərəfdən ölkənin ticarət balansı artırılmalı və kölgə iqtisadiyyatının həcmi azaldılmalıdır ki, vergi potensialında nəzərəçarpan inkişaf müşahidə olunsun. Çünki, sözügedən müstəqil dəyişənlər analizin asılı dəyişənlərinə statistik cəhətdən mənfi təsir göstərir. Sonuncu müstəqil dəyişən isə dövlət borcudur, hansı ki analizin müəyyən asılı dəyişənlərinə müsbət təsir göstərir. Bu müstəqil dəyişənlə bağlı onu qeyd etmək lazımdır ki, hökümət borcundakı artımlar dövləti vergi ilə bağlı müəyyən qərarlar verməyə və nəticədə verginin həcminin və sayının artırılması yolu ilə dövlət borclarının ödənilməsinə sövq edir.

**Müddəa 5. Vergitutma bazasının və vergi yığımı mexanizmlərinin təhlili ölkədə vergi sisteminin təkmilləşdirilməsində əsaslı rola malikdir.**

Vergi bazasının və vergi yığımı mexanizmlərinin gücləndirilməsi fiskal sabitliyin qorunması, dövlət xidmətlərinin maliyyələşdirilməsi və iqtisadi artımın dəstəklənməsi üçün olduqca vacibdir. Qeyd etmək lazımdır ki, ölkəmizdə mütəmadi olaraq vergi bazasının təkmilləşdirilməsi və vergitoplama mexanizmlərinin gücləndirilməsi ilə bağlı geniş tədbirlər görülür. Bu tədbirlərin nəticəsi olaraq son illərdə respublikada büdcəyə vergilərdən daxilolmalar və

vergi ödəyicilərinin sayı artmışdır. Mövcud statistikaya əsasən, 2023-cü il iyulun ayının 1-nə ölkəmizdə 1.452.702 vergi ödəyicisi olmuşdur. Təbii ki, vergi ödəyicilərinin sayında artımın müşahidə olunması, o cümlədən, dövlət büdcəsinə daxilolmalarda vergilərin payının əsaslı şəkildə artması uğurlu büdcə-vergi siyasətinin nəticəsidir. Lakin, nəzərə almaq lazımdır ki, dəyişən sosial-iqtisadi şərait vergi sahəsində də əsaslı dəyişiklikləri labüd edir. Aşağıdakı cədvəldə respublikamızda vergi bazasının təkmilləşdirilməsi və vergitoplama mexanizmlərinin gücləndirilməsi sahəsində lazımi istiqamətlər göstərilmişdir:

**Cədvəl 4. Vergi bazasının təkmilləşdirilməsi və vergitoplama mexanizmlərinin gücləndirilməsi sahəsində lazımi istiqamətlər**

| | |
|---|---|
| **Vergituma bazasının genişləndirilməsi** | Qeyri-rəsmi iqtisadiyyatın aradan qaldırılması<br>Rəqəmsal iqtisadiyyata vergilərin tətbiq edilməsi<br>Əmlak vergisi islahatlarının həyata keçirilməsi |
| **Vergi inzibatçılığının təkmilləşdirilməsi** | Vergi sahəsində informasiya analitikasının təkmilləşdirilməsi<br>Vergi auditi və vergi icrasının gücləndirilməsi |
| **Vergi qanunvericiliyinin modernləşdirilməsi** | Vergi güzəştləri və azadolmalarının artırılması<br>Proqressiv vergitutma tədbirlərinin həyata keçirilməsi |
| **Beynəlxalq əməkdaşlıq** | Vergi məlumatlarının mübadiləsi<br>İkiqat vergitutma müqavilələrinin artıtılması |

***Mənbə:*** *https://www.imf.org/en/News/Articles/2021/07/28/na-072821-five-things-to-know-about-the-informal-economy platformalarından əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Ümumilikdə qeyd etmək lazımdır ki, respublikada vergitutma bazasının təkmilləşdirilməsi üçün hər bir vergi növünün ayrı-ayrılıqda vergitutma bazası nəzərdən keçirilməli, vergitutma obyektləri dəqiq müəyyən edilməli, o cümlədən, beynəlxalq təcrübədə tətbiq edilən vergitutma bazasının formalaşdırılması prinsipləri və qaydaları ölkəmizə uyğunlaşdırılmalıdır. Əlavə olaraq vergi yığımı mexanizmlərinin gücləndirilməsi üçün müasir texnologiyalardan və proqramlaşdırmalardan istifadə etmək, vergitoplama mexanizmlərinin sürətləndirilməsi üçün bürokratik əngəlləri aradan qaldırmaq, eləcə də, vergi bəyan edilməsi və vergilərin ödənilməsi prosesini kompleks şəkildə elektron-

laşdırmaq lazımdır. Bu həm, vergi orqanlarının vaxt və maliyyə resurslarına qənaət etməsinə, həm də vergi ödəyicilərinin vergilərin ödənilməsi prosesinə düzgün yanaşmasına və onların vergi uyğunluğunun artırılmasına gətirib çıxarmağa təkan verəcəkdir. Bununla yanaşı, vergi orqanlarının icra və nəzarət mexanizmlərinin gücləndirilməsi, vergi sanksiyalarının məbləğlərinin artırılması və vergidən yayınma hallarına münasibətdə xarici təcrübədən istifadə edilməsi, riskli vergi ödəyicilərinin müəyyən edilərək siyahısının tərtib olunması, o cümlədən, vergidən yayınma hallarına qarşı beynəlxalq mübarizə tədbirləri ilə vergi işçilərinin yaxından tanış olması bu sahədə geniş uğurların əldə edilməsinə şərait yarada bilər. Ölkəmizdə vergi sahəsində analitik yanaşma və problemin həllinə yönəldilmiş kompleks tədbirlərin görülməsi vergi potensialının artıtılmasına öz töhfəsini verəcəkdir.

**Müddəa 6. Vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsi yollarının öyrənilməsi bu sahələrin inkişaf perspektivlərini müəyyən etməyə və effektiv vergi sisteminin formalaşdırılmasına imkan yaradır.**

Vergi inzibatçılığı, dövlətin vergi siyasətinin, o cümlədən ümumilikdə iqtisadi siyasətinin mühüm alətlərindən biri hesab edilir. O həm, büdcə daxilolmalarını təmin edən mənbələri formalaşdırır, həm də təsərrüfat subyektlərindən maliyyə resurslarının tutulmasının şərtlərini dəyişərək tənzimləyici funksiyanı yerinə yetirir. Vergi orqanlarınının lazımi informasiya texnologiyaları sistemi ilə təmin edilməsi, vergi inzibatçılığı sistemlərinin və biznes proseslərinin elektronlaşdırılması, vergi qanunvericiliyi və qaydalarının vergi idarəsi hüquqşünasları tərəfindən digər inzibati və texniki işçilərə şərh və izah olunması, vergi orqanları işçilərinin təlim və ixtisasartırma kurslarında iştirak etməsi, o cümlədən vergi orqanları işçilərinin daxili yoxlamasının aparılması vergi inzibatçılığının səmərəliliyinə və effektivliliyinə birbaşa təsir göstərən amillərdir.

Qeyd olunmalıdır ki, vergi qanunvericiliyinin təkmilləşdirilməsi də vergi sisteminin ümumi inkişafı üçün olduqca mühüm əhəmiyyət kəsb edir. Respublikamızda vergi qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Vergi Məcəlləsindən və onlara uyğun olaraq qəbul edilmiş digər qanunvericilik aktlarından ibarətdir. Qeyd etmək lazımdır ki, vergilərin müəyyən edilməsi,

onların yığım qaydaları, vergi orqanlarının, o cümlədən, vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyin pozulmasına görə məsuliyyət və digər vergi münasibətləri Vergi Məcəlləsi ilə tənzimlənir. Buna görə də Vergi Məcəlləsində aparılan təkmilləşdirmələr ölkənin vergi sisteminin inkişafında əvəedilməz rol oynayır.

Vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergi siyasətinin optimallaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Belə ki, qanunvericiliyin mütəmadi olaraq təkmilləşdirilməsinə baxmayaraq, vergi qanunvericiliyində müəyyən çatışmazlıqlar hələ də mövcuddur və onların aradan qaldırılması olduqca vacib məsələdir. İlk növbədə qeyd olunmalıdır ki, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərinin 7 il müddətinə 8000 manatadək vergiyə cəlb edilən aylıq gəlirlərinin 0% dərəcə ilə vergiyə cəlb edilməsi vergitutmanın prinsiplərinə ziddir. Belə ki, vergitutmanın prinsipi nəzərdə tutur ki, vergilər ədalətli və bərabər şəkildə bölüşdürülməlidir və dikriminasiya xarakteri daşımamalıdır. Aydındır ki, bu tədbir göstərilən sahələrin stimullaşdırılmasına və bu sahələrdə olan vergidən yayınma hallarının aşkara çıxarılmasına yönəldilmişdir. Buna baxamayaraq, dövlət sektorundaa və neft-qaz fəaliyyəti sahəsində buna bənzər heç bir güzəştin olmaması vergi ödəyicilərində inamsızlıq yarada və vergidən yayınma hallarını artıra bilər.

Əlavə olaraq qeyd olunmalıdır ki, ölkəmizdə vergitutma zamanı ümumi bəyannamə sisteminin tətbiq edilməməsi, yəni vergilərin həm də xərcə görə hesablanmaması ödəmələr həyata keçirilərkən rəsmiləşdirilmənin həyata keçirilməməsi üçün şərait yaradır və bu da öz növbəsində gəlirlərin vəxərclərin rəsmiləşdirilməməsinə gətirib çıxarır. Gəlirlərin rəsmiləşdirilməməsi də öz növbəsində vergidən yayınma hallarının yaranmasına səbəb olur. Həmçinin, məcəllədə nəzərdə tutulan ödəmələr haqqında məlumatın verilməsi lakin bununla bağlı heç bir məsuliyyət tədbirinin nəzərdə tutulmaması vergi ödəyicilərinin bu məsələyə biganə yanaşmasdı ilə nəticələnir.

Vergi məcəlləsinin 98.2.1-ci maddəsində nəzərdə tutulan fiziki şəxsə banklararası kredit hərracından aşağı faiz dərəcəsi ilə verilən ssudanın vergiyə cəlb edilməsi vergitutmanın obyektivliyi baxımından məqsədəuyğun deyildir. Belə ki, banklararası kredit hərracında olan faiz

dərəcəsinə uyğun faizlə ödənməli olan məbləğlə aşağı faiz dərəcəsinə uyğun ödənməli olan məbləğ arasındakı fərq fiziki şəxsin gəliri gesab edilir və bu gəlir vergiyə cəlb olunur. Nəzərə almaq lazımdır ki, fiziki şəxs əldə etdiyi ssudaya görə aşağı faiz dərəcəsi ilə olsa belə, faiz ödəyir və banklararası kredit hərracı ilə aradakı fərq onun gəliri hesab olunmammalıdır.

Əlavə olaraq qeyd olunmalıdır ki, məcəllənin bəzi maddələrində ziddiyyət mövcuddur və daha obyektiv vergi qanunvericiliyinin təmin edilməsi üçün bu ziddiyyətlər aradan qaldırılmalıdır. Belə ki, Vergi Məcəlləsinin 123-cü maddəsində hüquqi şəxslərə verilən faizlərdən ödəmə mənbəyində vergi tutulması nəzərdə tutulmadığı halda, məcəllənin 150.1.5-ci maddəsində hüquqi şəxslərə ödənilən faizlərdən ödəmə mənbəyində vergi tutulması nəzərdə tutulmuşdur. Bu cür ziddiyyətlər vergi ödəyiciləri və vergi orqanları arasında anlaşılmazlıq yaranmasına və eləcə də vergi ödəyicilərinin fəaliyyətində maneçilik yaranmasına səbəb ola bilər.

Qeyd olunmalıdır ki, spirtli içki və tütün istehsalı üçün tələb olunan lisenziyaların ləğv olunmasına baxmayaraq, məcəllənin 194.2.4-cü maddəsində lisenziyaların qüvvədəolma müddətinin dayandırılması və ya onların ləğv edilməsi ilə bağlı müddəalar mövcuddur. Məcəllədə dəyişikliklər aparılan zaman bu kimi hallar nəzərə alınmalı və vergi inzibatçılığı zamanı mümkün ziddiyyətlərin yaranmasının qarşısının alınması üçün bu çatışmazlıqlar aradan qaldırılmalıdır.

Qeyd olunmalıdır ki, vergi inzibatçılığının təkmilləşdirilməsi dövlətin vergi siyasətinin ən mühüm alətlərindən biri hesab olunur. Belə ki, vergi inzibatçılığının təkmilləşdirilməsi vergi ödəyicilərinin və vergi orqanlarının işlərinin sadələşdirilməsinə, vergi sahəsində şəffaflığın artırılmasına, vergilərin ödənilməsi proseslərinin sürətləndirilməsinə, o cümlədən, investisiyaların təşviqinə gətirib çıxarır. Ölkəmizdə vergi inzibatçılığı sahəsində ən böyük uğurlardan biri də vergi xidmətlərinin elektronlaşdırılmasıdır. Belə ki, benəlxalq təcrübəyə baxdıqda görürük ki, vergi xidmətlərinin elektronlaşdırılması, həm vergi ödəyicilərinin asanlıqla vergiləri bəyan etmələrinə və ödəmələrinə şərait yaradır, həm də vergi orqanlarının səmərəli və effektiv şəkildə öz funksiyalarını icra etməsinə imkan verir. Əlavə olaraq, vergi xidmətlərinin elektronlaşdırılması, vergi prosedurаlarının asalaşdırılmasına gətirib

çıxarır ki, bu da öz növbəsində ölkənin beynəlxalq aləmdə vergi ödənilməsi reytinqinin artmasına və nəticədə investorların cəlb edilməsinə ciddi şəkildə təkan verir. Danılmaz faktdır ki, vergi xidmətlərinin elektronlaşdırılması həm də vergi ödəyiciləri ilə vergi orqanları arasında birbaşa təmasın azalmasına və nəticədə vergi sahəsində şəffaflığın artıtılmasına gətirib çıxarır.

**Müddəa 7. Xarici və yerli investisiyaların təşviq edilməsində vergitutmanın əhəmiyyətinin qiymətləndirilməsi ölkəyə investisiya cəlbediciliyinin stimullaşdırılmasına və uzunmüddətli dövrdə xarici investorlardan gələn vergidaxilolmalarının artmasına rəvac verir.**

İnvestisiya qoyuluşlarının stimullaşdırılması üçün dövlət tərəfindən həyata keçirilən bir sıra tədbirlər mövcuddur. Dövlət tərəfindən həyata keçirilən bu tədbirlərdən biri və önəmlisi də vergi təşviqləridir. Vergi stimulları kimi əsasən vergi güzəştləri, vergi tətilləri, idxal edilən avadanlıqlardan vergilərdən azad edilməsi, xüsusi seçilmiş kateqoriyaya aid olan məhsulların ƏDV-dən azad edilməsi və s. kimi tədbirləri göstərə bilərik. Bir çox tədqiqatlarda müəyyən edilmişdir ki, əsasən mənfəət vergisinin investisiyalarla qarşılıqlı əlaqəsi daha çoxdur. Misal üçün hansısa İEÖ-nin transmilli şirkətləri digər İEOÖ-ə ucuz işçi qüvvəsi, xammal resursunun əlçatanlığı kimi səbəblərdən investisiya qoyduğu kimi həmçinin vergi güzəştlərinin çox olmasıda qərar qəbuluna birbaşa təsir edir. Hər bir investor daha az vergi ödəyəcəyi yeri seçməkdədir. Qlobal və regional baxımından İEOÖ hər biri BXİ-ni öz ölkəsinə çəkmək məqsədilə dünya təcrübəsinə əsasən daha uyğun vergi proqramları tətbiq etməkdədirlər. Bir çox İEOÖ artıq xüsusi azad iqtisadi zonalar, sənaye zonaları və məhəllələri yaratmaqla həm regionların inkişafını təmin edirlər, həm də ölkə iqtisadiyyatının inkişiafına təkan verirlər.

Vergi güzəştlərinin tənzimlənməsi kənardan investisiya axınını artırmaq üçün hərtərəfli siyasət aləti kimi xidmət edə bilməz. BXİ ölkələr arasında yerdəyişməsinin dinamikasını araşdırarkən aydın olur ki, bu cür dəyişikliklərin effektiv təsir göstərə bilməsi üçün təkcə vergi təşviqi siyasətlərinin deyil, həmçinin daha geniş institusional və makroiqtisadi amillərin kompleks qarşılıqlı təsirindən asılıdır. Bu çoxşaxəli elementlər sərmayədarların vergidən sonrakı gəlirlərinə və investisiyadan əvvəl məsrəflərə kollektiv şəkildə təsir göstərir.

Hökumətlər, BXİ-ni təşviq etmək üçün vergi təşviqlərini tətbiq edərkən, vergi gəlirlərinin, iş yerlərinin yaradılması və biliklərin ötürülməsi də daxil olmaqla, BXİ-nin öz iqtisadiyyatlarına gətirə biləcəyi faydaları əsaslı şəkildə ölçməlidirlər. Eyni zamanda, dövlət xərclərinin artması kimi potensial mənfi cəhətləri də nəzərə almalıdırlar. Dünya təcrübəsinə nəzər saldıqda müşahidə edirik ki, bir çox dünya dövlətləri, xüsusilə də inkişaf etmiş ölkələr investisiyaların təşviq edilməsi sahəsində vergi güzəştlərindən olduqca effektiv şəkildə istifadə edirlər. Aşağıdakı cədvəldə, investisiyanın təşviq edilməsi sahəsində bir sıra dünya dövlətləri tərəfindən həyata keçirilən tədbirlər göstərilmişdir:

**Cədvəl 5. İnvestisiyaların təşviq edilməsi sahəsində həyata keçirilən tədbirlər**

| **Ölkələr** | **Görülən tədbirlər** |
|---|---|
| Estoniya | Şirkətlərin yenidən investisiya etdikləri mənfəətlərindən vergi tutulmur |
| Birləşmiş Krallıq | Həm xarici dividendlərdən, həm də kapital artımından vergi tutulmur |
| Belçika | Həm xarici dividendlərdən, həm də kapital artımından vergi tutulmur |
| Kanada | Müəssislərə malların istehsalı üçün istifadə olunan maşın və avadanlıqların tam dəyərinin dərhal silinməsinə icazə verilir |
| İrlandiya | Xalis əməliyyat itkilərinin bir il geri götürülməsinə və qeyri-müəyyən müddətə irəli çəkilməsinə icazə verilir |
| İtaliya | Qeyri-maddi aktivlərə investisiyalar üçün xərclərin ödənilməsi və korporativ kapital üçün təşviqlər mövcuddur |
| Litva | Maşınlara, binalara və qeyri-maddi aktivlərə qoyulan investisiyalar mövcud olan vergidən daha səmərəli vergi rejimi tətbiq edilir |
| Portuqaliya | Korporasiyalar əmlak vergilərini vergi tutulan gəlirdən çıxa bilər və korporativ kapital üçün təşviqlər mövcuddur |
| Amerika Birləşmiş Ştatları | Müəssisələr tərəfindən yeni texnologiya, avadanlıqlara və binalara qoyulan investisiyalara çəkilən xərclərin çıxılmasına imkan verilir |

***Mənbə:*** *2022 International Tax Competitiveness Index | Tax Foundation platformalarından əldə edilən məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Beynəlxalq təcrübədə tətbiq edilən bu modellərin araşdırılması və ölkəmizin vergi sisteminə uyğunlaşdırılaraq tətbiq edilməsi, ölkəmizdə də investisiya mühitinin təkmilləşdirilməsinə gətirib çıxarmağa təkan verə bilər. Xüsusilə, respublikamızın müxtəlif sahələrində müəyyən edilən spesifik sahələr üzrə vergi güzəştlərinin tətbiq edilməsi respublikamızın investisiya mühitinin yaxşılaşdırılmasına, yeni iş imkanlarının yaradılmasına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına, vergilərdən gələn gəlirlərin uzunmüddətli dövrdə artırılmasına, regionların sosial-iqtisadi inkişafının genişləndirilməsinə, o cümlədən ümumi iqtisadi artıma gətirib çıxarmağa töhfə verəcəkdir.

Dissertasiya işinin "**nəticə**" hissəsində, tədqiqatda görülən işlərin ümumi nəticəsi qeyd olunmu, o cümlədən, vergitutmanın inkişaf istiqamətləri haqqında məlumat verilmişdir. Bu istiqamətlər aşağıdakılardır:

1) Aparılan çoxxətli reqressiya analizinin nəticəsi göstərmişdir ki, ÜDM-in artım tempi, qanunun aliliyi, kapital qoyuluşu (dollarla) və dövlət borcu ölkəmizdə vergi potensialına birbaşa təsir edən amillərdir və buna görə də bu faktorların inkişafı ölkəmizin prioritet inkişaf istiqamətinə çevrilməlidir. ÜDM-in artımı üçün qeyri-neft sektorunun inkişafı, investisiya qoyuluşlarının cəlb edilməsi üçün vergi stimullarının tətbiqi, qanunun aliliyinin təmin edilməsi məqsədilə məhkəmə sisteminin təkmilləşdirilməsi, o cümlədən, dövlət borcunun aşağı və yuxarı hədlərinin yenidən müəyyən edilməsi bu sahələrin inkişafına və nəticədə vergidən daxilolmaların artmasına gətirib çıxaracaqdır.
2) Hazırda respublikanın hər yerində mənfəət vergisinin dərəcəsi 20% olaraq tətbiq edilir. Mənfəət vergisi dərəcəsinin regionlarda aşağı salınması həm regionların iqtisadi potensialının artmasına, həm məşğulluq səviyyəsinin yüksəlməsinə və eləcə də Bakı ilə regionlar arasında mövcud olan kəskin iqtisadi fərqin aradan qalxmasına təkan verə bilər.
3) Vergi qanunvericiliyində mövcud olan çatışmazlıqlardan biri də vergi mübahisələrinin həlli mexanizmlərinin kifayət qədər zəif olmasıdır. Belə ki, ölkədə baş verən vergi ilə bağlı mübahisəli məsələlərin həlli bəzi vaxtlarda illər çəkir. Buna görə də, sağlam və

təkmil mübahisələrin həlli mexanizmlərinin tətbiqi ölkədə vergi sisteminin inkişafına gətirib çıxaracaqdır. Xarici ölkələrdə tətbiq edildiyi kimi, vergi mübahisələrinin həllinin ixtisaslaşdırılmış Vergi məhkəmələri tərəfindən həyata keçirilməsi bu sahədə olan problemlərin həllinə şərait yaradacaqdır.

4) Amerikada tətbiq edilən və müsbət nəticə verən "Könüllü açıqlama proqramı"nın tətbiqi ölkədə vergidən yayınma hallarının qarşısının alınmasında müstəsna rol oynayacaqdır. Proqramın mahiyyəti vergidən yayınma hallarının anonim qaydada vergi orqanlarına bildirilməsindən ibarətdir. Belə ki, vergi orqanlarına bu barədə məlumat verən şəxsin kimliyi tam olaraq konfidensial saxlanılır və məlumatın doğruluğu vergi orqanları tərəfindən təsdiq edildikdən sonra vergidən yayınan fiziki və ya hüquqi şəxsdən alınan vəsaitin 15-25%-i miqdarında məlumat verən şəxsə vəsait təqdim edilir. Ölkəmizdə bu proqramın tətbiqi həm insanların vergidən yayınma hallarının vergi orqanlarına bildirməsini təşviq edəcək, həm də vergidən yayınma hallarının qarşısının alınmasında böyük rol oynayacaqdır.
5) Rəqəmsal bizneslərin ədalətli və şəffaf şəkildə vergiyə cəlb olunmaları üçün xüsusilə rəqəmsal iqtisadiyyatı hədəf alan aydın və əhatəli vergi tənzimləmələri tətbiq edilə bilər. Rəqəmsal şirkətlər tərəfindən istifadəçi məlumatlarının toplanması və istifadəsinə vergi qoyulması kimi innovativ yanaşmalar vergidən yayınma hallarının qarşısının alınmasına təkan verə bilər. Xüsusi texniki-texnoloji avadanlıqlar vasitəsilə, əvvəlcədən siyahısı hazırlanmış platformalara giriş edən şəxslərin müəyyən edilərək cərimə edildikdən sonra vergiyə cəlb olunması rəqəmsal biznesdə vergidən yayınma hallarının qarşısının alınmasına şərait yaradacaqdır.
6) Ətraf mühit vergisinin (environmental tax) tətbiqi həm ətraf mühitin qorunması nöqteyi-nəzərdən, həm də vergi gəlirlərinin artırılması baxımından olduqca əhəmiyyətli bir məsələdir. Bu sahədən əldə edilən gəlirlərin böyük əksəriyyətini də məhz ətraf mühitin mühafizəsi ilə bağlı dövlət tədbirlərinə səfərbər etmək olar.
7) Xarici dövlətlər ilə ikiqat vergitutma müqavilələrinin artırılması üzrə tədbirlər görülməsi ölkəmizin vergi sahəsində rəqabətqabiliy-

yətliliyinin artmasına gətirib çıxaracaqdır. Ölkəmizin dünya dövlətlərindən sadəcə 56-sı ilə ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı müqaviləsi vardır və bu rəqəm İƏİT ölkələrində ortalama olaraq 70-in üzərindədir.

8) İnvestisiyların cəlb edilməsində Amerika modelinin tətbiq edilməsi ölkəmizin beynəlxalq rəqabətqabiliyyətliliyini artıracaq və investisiya axınını sürətləndirəcəkdir. Belə ki, müəssisələr tərəfindən yeni texnologiya, avadanlıqlara və binalara qoyulan investisiyalara çəkilən xərclərin onların vergi tutulan məbləğindən çıxılması həm müəssisələrin vergi yükünü azaldacaq, həm də üzünmüddətli dövrdə ölkənin vergi daxilolmalarının artmasına gətirib çıxaracaqdır.
9) Torpaq vergisinin tutulmasında Estoniya modelinin tıətbiq edilməsi bu vergilərdən gələn gəlirlərin kifayət qədər artmasına səbəb olacaqdır. Estoniyada torpaq vergisi torpağın hesablanmış dəyərinə uyğun olaraq yerləşdiyi əraziyə uyğun 0.1-2.5% miqdarında illik olaraq alınır. Bu modelin tətbiqi həm vergilərin miqdarının müəyyən olunmasındakı çətinlikləri aradan qaldıracaq və onun yığımını sadələşdirəcək, həm də vergilərin daha ədalətli və şəffaf olmasını təmin edəcəkdir.

Yuxarıda göstərilən təkliflərin tətbiq edilməsi ölkəmizdə ÜDM-in artım tempinin sürətlənməsinə, qeyri-neft sektorunun inkişafına, dövlət borcunun azaldılmasına, büdcə xərclərinin daha səmərəli və effektiv idarə olunmasına, ölkəyə yerli və xarici investorların cəlb edilməsinə, vergi sistemində mövcud olan çatışmazlıqların aradan qaldırılmasına, vergitutma proseslərinin elektronlaşdırılmasına, gəlir bərabərsizliyinin aradan qaldırılmasına və vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə şərait yaradacaqdır.

**Dissertasiya işinin əsas müddəaları aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**

1. Covid-19 böhranından sonra fiskal siyasətin istiqamətləri // Azərbaycan Texnologiya Universiteti. İnnovasiyalı İqtisadiyyat və Menecment jurnalı. Gəncə, 2022.
2. Fiskal siyasət inkişaf etməkdə olan ölkələrdə sabitləşmə aləti kimi // Geostrategiya jurnalı. Bakı, 2023.
3. Azərbaycanda koronavirusa qarşı aparılan fiskal siyasətin əsas istiqamətlər // Azərbaycan Dövlət İqtisad Universiteti. Elmi xəbərlər jurnalı. Bakı-2023.
4. Fiskal risklərin qiymətləndirilməsi və idarə olunması // Azərbaycan Dövlət Neft və Sənaye Universiteti. Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri. Bakı-2023.
5. Влияние Налоговой Политики На Приток Прямых Иностранных Инвестиций: Обзор Литературы // Научно-исследовательский экономический институт Министерства экономики Республики Беларусь. Экономический бюллетень. Минск, 2023.
6. Impact Of Budget Deficit On Macroeconomic Variables // Biltek-VI International Symposium On Current Developments in Science, Technology And Social Science. Malatya, september 16-18, 2022.
7. Covid-19 Böhranından Sonra Vergi Və Fiskal Siyasətlərin İstiqamətləri // Doktorantların və gənc tədqiqatçıların XXV respublika elmi konfransı (NASCO XXV). Bakı, 23-24 noyabr 2022.
8. Vergitutmanın inkişaf etməkdə olan ölkələrdə əhəmiyyəti // 10-cu Avrasiya zirvəsi elmi tədqiqatlar və innovasiyalar konqresi. Bakı, 16-17 fevral 2023.

Dissertasiyanın müdafiəsi 22 yanvar 2025-ci il tarixində saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 6.

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın azəri və ingilis dilində elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir (http://unec.edu.az/tedgigat/dissertasiva-surasi/).

Avtoreferat 20 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.12.2024
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (45163 işarə)
Tiraj 100.

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində*
*hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün: capevi@internet.ru Tel.: +994552012809*